Ədəbiyyat qəzeti
№3

# Əjdər Yunus RZA - 70



Hörmətli Əjdər Yunus Rza!

Sizi - tanınmış alim və şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1952-ci il yanvarın 2-də Cəbrayıl rayonunun Xələfli kəndində anadan olmuş, 1968-ci ildə Xələfli kənd səkkiz illik, 1970-ci ildə isə Şükürbəyli kənd orta məktəbini bitirmisiniz.

1970-71-ci ildə Sumqayıt şəhər 5 saylı texniki məktəbini bitirib, 1971-1972-ci illərdə M.Əzizbəyov adına kimya zavodunda 5-ci dərəcəli aparatçı vəzifəsində çalışmısınız. 1972-73-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin hazırlıq şöbəsində oxumuş, 1977-ci ildə tarix fakültəsini fərqlənmə diplomu ilə başa vurub Salyanda 27 saylı dəmir yolu orta məktəbində pedaqoji fəaliyyətə başlamısınız.

1978-ci ilin dekabrından 1995-ci ilin dekabrına qədər təhsil aldığınız Pedaqoji Universitetdə laborant, baş laborant, müəllim və baş müəllim vəzifələrində çalışmış, 1987-ci ildə namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almısınız.

1995-ci ildən 2012-ci ilə kimi Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında "İctimai elmlər" kafedrasının rəisi, Akademiyanın rəis müavini vəzifələrində işləmiş, 2012-ci ildən istefada olan polis polkovnikisiniz. 2014-2016-cı illərdə Bakı Avrasiya Universitetininin "Regionşünaslıq və iqtisadiyyat" fakültəsinin dekanı olmusunuz. Hazırda həmin universitetin dosentisiniz.

"Bulaq" adlı ilk şeiriniz 1969-cu ildə Cəbrayıl rayonunun "Kolxozçu" ("Xudafərin") qəzetində çap olunub. "Taleyimin qisməti", "Haray dağlar", "Bir ovuc torpaq", "Gordubaba, yadındamı", "Darıxmasın" və "Zamanın girovuyam" (2003), "Tövbə bu dünyaya bir də gəlmərəm", "Niyə açdın, ay bənövşə", "Yol gedirəm", "Dərdim iki taylıdı" və "Mən belə dünyanı istəməmişdim" adlı şeirlər kitabınız nəşr olunub. "Haray", "Gordubaba, yadındamı", "Xocalı dərdi", "Atatürk", "Heydərbabayla üz-üzə" və "Azadlıq carçısı", "Daş yaddaşım" və "Qarabağnamə" poemalarını yazmısınız. 2015-ci ilin aprelində Türkiyədə Çanaqqala zəfərinin 100 illiyi münasibətilə türk şairlərinin şeir yarışmasında "Atatürk" poemanız 3-cü yerə layiq görülmüşdür. Həmçinin, şeirləriniz Türkiyədə "Qardaş qələmlər" və "Ardıc, Azərbaycanda "Ulduz", "Mingəçevir leysanı", "Xəzan" jurnallarında və qəzetlərdə çap olunub.

Hörmətli Əjdər Yunus Rza!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**